**Elmi Şurasının 2 saylı iclasının**
**QƏRARLARI**

1. **2022/2023-cü tədris ilinin yaz imtahan sesiyasının nəticələri, buraxılış işlərinin və magistr dissertasiyalarının müdafiəsi barədə**
   **Məlumat verir:** Tədris işləri üzrə prorektor, prof. A.F.Qasımov

**Qərar:** **1. Tədris işləri üzrə prorektor, prof. A.F.Qasımovun 2022 - 2023-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasının nəticələri, buraxılış işlərinin və magistr dissertasiyalarının müdafiəsi barədə məlumatı nəzərə alınsın.**

**2. Yaz semestrinin imtahan sessiyasında müvəffəqiyyət və keyfiyyət göstəricilərinin müəyyən qədər artmasına baxmayaraq bəzi fakültələrdə keyfiyyət göstəricilərinin (STMKS F-2%, TİF-6% və NF-8%) çox aşağı olması uyğun fakültə dekanlarının diqqətinə çatdırılsın.**

**3. Fakültə dekanlarına və kafedra müdirlərinə tapşırılsın:**
- **keyfiyyət göstəricilərini aşağı salan fənlərin müəyyənləşdirilməsi, bu fənlərin tədris olunduğu uyğun kafedralarda nəticələrin aşağı olma səbəblərinin aydınlaşdırılması və aradan qaldırılması istiqamətində işlərin aparılması;**
- **buraxılış işlərinin mövzularının aktuallığına xüsusi diqqət yetirilməsi;**
- **dövlət imtahanlarının nəticələinin araşdırılması və keyfiyyətin artırılması üçün müvafiq tədbirlərin görülməsi.**

**4. Magistratura mərkəzi tərəfindən magistr dissertasiyalarının mövzularının aktuallığı və antiplagiat tədbirləri nəzarətdə saxlanılsın.**

**5. İmtahan sessiyasının yekunları fakültə dekanlıqlarında və kafedralarda ciddi araşdırılsın, nöqsanların araşdırılması və aradan qaldırılması istiqamətində ciddi işlər görülsün.**

**6. Universitetə qəbul olunmuş I kurslarda iş gücləndirilsin.**

**7. I kurslarda tədris aparan kafedralarda tələbələrin kollokviumlara hazırlaşdırılmasına diqqət artırılsın.**

**8. Qərarın icrasına nəzarət tədris işləri üzrə prorektor A.F.Qasımova tapşırılsın.**

2. **Cari məsələlər.**

**2.1. Kafedraların reytinqinin qiymətləndirilməsi meyarları barədə.**

**Qərar: Universitetin kafedralarının reytinqinin qiymətləndirilməsi meyarları təsdiq edilsin.**

**2.2. "Məsləhətçi - professor" adının verilməsi barədə.**

**Qərar: 1. "Sənayenin təşkili və idarə edilməsi" kafedrasının əməkdaşı Ə.B.Əliyev məsləhətçi – professor vəzifəsinə keçirilsin.**

**2. Professor Ə.B.Əliyevə verilən əmək haqqı universitetin professor-müəllim heyətinin ştat cədvəlinə uyğun müəyyən edilsin.**